# HƏRBİ QULLUQÇULARIMIZ NOVRUZ BAYRAMINI SEVİNCLƏ QARŞILAYIBLAR

***Mart ayının 20-21-də Azərbaycan xalqı ilin təzələnməsini, yeni baharın gəlişini böyük təntənə ilə qeyd edir. Tarix boyu öz gəlişi ilə yurdumuza bolluq, bərəkət, sevinc və xoş əhval-ruhiyyə gətirən, təbiətin oyanması, baharın rəmzi sayılan Novruz xalqımızın ən dəyərli bayramıdır.***









Ölkə miqyasında bütün idarə və təşkilatlarda coşqu ilə keçirilən el bayramımız, hər il olduğu kimi, bu il də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrində yüksək səviyyədə qeyd olunub. Bayram günlərində hərbi hissələrdə şəxsi heyətin ziyalılarla, Daxili Qoşunların veteranları ilə görüşləri, bilik yarışları, viktorinalar, eləcə də özfəaliyyət kollektivlərinin konsert proqramları təşkil edilib, hərbi qulluqçular üçün bayram naharları hazırlanıb. Həmçinin, torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş şəhid hərbi qulluqçularımızın ailə üzvləri ziyarət olunaraq, onlar da bayram münasibətiə təbrik edilib.

Məlumat üçün qeyd edək ki, milli bayram münasibətilə Daxili Qoşunların Nərimanov rayonunda yerləşən hərbi hissəsinin ərazisində fəaliyyət göstərən uşaq bağçasında da Novruz şənliyi keçirilib. Əlbəttə, Novruz bayramında körpə balaların diqqətdən kənarda qalması artıq bir ənənə halını alıb. Hərbi qulluqçularımızın azyaşlı övladlarının qatıldığı şənlikdə Bahar bayramının mahiyyəti, qədim tarixi barədə məlumat verilib, təbriklər çatdırılıb. Musiqi nömrələri ilə davam edən tədbir nur çöhrəli övladlarımızın bayram səhnəcikləri, rəqsləri və şeirləri söyləməsi ilə yaddaqalan olub.

Sözsüz ki, hər il Daxili Qoşunlar komandanlığının diqqət və qayğısı ilə hərbi hissələrimizdə, eləcə də uşaq bağçamızda keçirilən bayram şənlikləri şəxsi heyətin ürəyincə olur. Bayram tədbirlərinin belə təmtəraqla keçirilməsi eyni zamanda hərbi qulluqçularda ruh yüksəkliyinin yaranmasına xidmət edir.

**leytenant N.Ağayeva**

# VƏTƏNƏ XİDMƏT HƏR BİRİMİZİN BORCUDUR!

99713 saylı hərbi hissənin nümunəvi xidmətilə seçilən hərbi qulluqçularından biri mayor Sabir Ateşidir. O, 1968-ci il fevralın 29-da Şəki rayonunun Turan qəsəbəsində dünyaya göz açıb. Orta məktəbi doğma rayonunda bitirən Sabir müddətli həqiqi hərbi xidmətini 1986-1988-ci illərdə Rusiyanın Novosibirsk vilayətində keçib. 1989-1991-ci illərdə Litvanın Vilnüs şəhərində yerləşən orta ixtisas milis məktəbində təhsil alıb. Təhsilini başa vurduqdan sonra qarşısına peşəkar hərbçi olmaq məqsədini qoyan gənc leytenant 1995-ci ildə Daxili Qoşunlarda xidmətə başlayır. Hazırda 99713 saylı hərbi hissənin qərargahında kimya xidmətinin rəisi vəzifəsindədir. Artıq 22 illik şərəfli, keşməkeşli yol keçən hərbi qulluqçumuz bu gün peşəkarlığı, eləcə də mənəvi keyfiyyətləri ilə şəxsi heyətə örnəkdir.



O, hərbi hissənin xüsusi silah və xüsusi vasitələrinin istifadəsinə, qorunub saxlanılmasına daima nəzarət edir. Şəxsi heyətə xüsusi silah və xüsusi vasitələrin düzgün istifadə edilməsinin öyrədilməsi üzrə nəzəri və praktiki məşğələlərin keçirilməsinə diqqət yetirən mayor S.Ateşi bu sahə üzrə mütəxəssislərin hazırlanmasında da əməyini əsirgəmir. Vəzifəsinin məsuliyyətini dərindən anlayır, hərbi intizamın möhkəmləndirilməsində iştirak edərək, öz tövsiyələrini verməyi də heç zaman unutmur.



Zəhmətsevərliyi, nizam-intizamı ilə fərqlənən hərbi qulluqçulardan biri də 16076 saylı hərbi hissənin hərbi qulluqçusu baş leytenant Nurlan Məmmədovdur. O, 1983-cü il yanvar ayının 31-də Ermənistanın Masis rayonunda anadan olub. Həqiqi hərbi xidmətini Müdafiə Nazirliyinin Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəsində keçib. 2003-2008-ci illərdə Bakı şəhər Baş Polis İdarəsində polis əməkdaşı kimi fəaliyyət göstərib. 2008-ci ildə Daxili Qoşunların 25031 saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin həmlə qrupunda həmləçi vəzifəsinə təyin olunur. Hərbi biliklərini təkmilləşdirmək üçün Daxili Qoşunların Orta İxtisas Məktəbində təhsil alan gənc hərbçi 2014-cü ildə məktəbi yüksək nəticələrlə başa vurur. Artıq peşəkarlıq vərdişlərinə yiyələnmiş gənc zabit həmin ildən 16076 saylı hərbi hissənin Mühafizə bölüyündə taqım komandiri vəzifəsində xidmətə başlayır. O, hazırda qərargah rəisinin xidmət üzrə köməkçisi vəzifəsindədir.

Hərbi xidmətin məsuliyyətini dərk edən baş leytenant N.Məmmədov daim öz üzərində çalışan, xidmətdə nöqsana yol verməyən hərbçidir. Döyüş hazırlığının yüksək səviyyədə saxlanılması istiqamətində göstərdiyi əzmkarlığa görə 2016-cı ildə Daxili İşlər Nazirinin əmri ilə ona vaxtından əvvəl "baş leytenant" hərbi rütbəsi verilib. Vəzifələrinin icrası zamanı ən çox diqqət yetirdiyi məqam mühüm dövlət obyektlərinin mühafizəsinə təyin olunan qarovulların seçilməsi, hazırlanması və düzgün xidmətin təşkilidir. Bu zaman bölük komandirləri ilə birgə fəaliyyətə xüsusi önəm verilir.

**leytenant N.Ağayeva**

## İDMAN

### DAXİLİ QOŞUNLARIN YARANMASININ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ SƏRBƏST GÜLƏŞ ÜZRƏ YARIŞ KEÇİRİLİB

***"2017-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən Daxili Qoşunların yaradılmasının 25-ci ildönümünə həsr olunmuş Daxili Qoşunların birinciliyi uğrunda sərbəst güləş üzrə yarış keçirilmişdir. Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 25031, 17072, 17074, 16077, 16073, 25033, 12318, 17071, 16075 və 16076 saylı hərbi hissələrdən 13 komanda olmaqla, 86 nəfər hərbi qulluqçu iştirak etmişdir. Şəxsi və komanda birinciliyi uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olmuşdur:***



**55 kq. çəki dərəcədə**

**I yer -** kursant Coşqun Hudulov (AHM)
**II yer -** əsgər Mahmudalı İsmayılov (16075 saylı hərbi hissə)

**60 kq. çəki dərəcədə**

**I yer -** çavuş Kamal Məmmədli (16075 saylı hərbi hissə)
**II yer -** kursant Həsən Səfərov (AHM)
**III yer -** baş əsgər Tural Abbasov (16073 saylı hərbi hissə)

**66 kq. çəki dərəcədə**

**I yer -** leytenant Nadir Şərifov (16075 saylı hərbi hissə)
**II yer -** baş çavuş Eldar Məmmədov (99713 saylı hərbi hissə)
**III yer -** kursant Əli Ağayev (AHM)

**74 kq. çəki dərəcədə**

**I yer -** çavuş Məhəmməd Ağalarov (99713 saylı hərbi hissə)
**II yer -** çavuş Elvin Dövlətov (25031 saylı hərbi hissə)
**III yer -** əsgər Ənvər Xəlilov (17072 saylı hərbi hissə)

**84 kq. çəki dərəcədə**

**I yer -** çavuş Mirəli Hüseynov (25031 saylı hərbi hissə)
**II yer -** çavuş Əli Bayramov (99713 saylı hərbi hissə)
**III yer -** əsgər Elşən Əzizov (67987 saylı hərbi hissə)

**96 kq. çəki dərəcədə**

**I yer -** əsgər Ceyhun Babakişiyev (16077 saylı hərbi hissə)
**II yer -** çavuş Tural Nurməmmədov (17072 saylı hərbi hissə)
**III yer -** baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)

**120 + kq. çəki dərəcədə**

**I yer -** çavuş Orxan Əsgərov (17072 saylı hərbi hissə)
**II yer -** baş çavuş Ramal Məmmədov (17074 saylı hərbi hissə)
**III yer -** əsgər Firudin Dadaşov (25031 saylı hərbi hissə)
**III yer -** leytenant Taleh Əsgərov (16077 saylı hərbi hissə)

Komanda üzrə birincilikdə 99713 saylı hərbi hissə, 16075 saylı hərbi hissə və 17072 saylı hərbi hissə ardıcıl olaraq I, II, III yerə layiq görülmüşlər. Aktivinə heç bir xal yazmayan 17071 saylı hərbi hissə, 12318 saylı hərbi hissə və 16076 saylı hərbi hissə isə sonuncu yerdə qərarlaşmışlar.

**Mətbuat xidməti**

## Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti və veteranları ehtiyatda olan polkovnik Ağakişi Adıgözəlova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ

***Hələ XX əsrin əvvəllərində "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmiş, Bakıdan başlanan vəhşiliklər Azərbaycanın bir çox hissəsini və indiki Ermənistan ərazilərində azərbaycanlılar yaşamış məntəqələri əhatə etmişdir.***



**1918-ci ilin mart hadisələri zamanı azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və başqa bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, Şamaxının Əngəsirxan kəndində 150 adam öldürülmüş, Navahı, Mehniman, Cəyirli kəndləri yandırılmış, dağıdılmış və dinc əhali silahdan keçirilmişdir. Qubanın yalnız bir kəndində 555 kişi, 260 qadın, 140 uşaq öldürülmüşdür. Zəngəzur qəzasının Buqudu kəndində 400 adam məscidə doldurulmuş, sonra yandırılmışdır. Zəngəzur qəzasında 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1061 kişi, 799 qadın və 485 uşaq yandırılmışdır.**

Ümumilikdə, isə öldürülənlərin sayı 12 min nəfərdən çox olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyası yaratmışdır. Komissiya bu soyqırımı araşdırmış, Xarici İşlər Nazirliyi nəzdində isə soyqırım həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün xüsusi qurum yaradılmış, 1919 və 1920-ci ilin mart ayının 31-i isə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırıma və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Zaqafqaziyanın sovetləşdirilməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan ərazisi elan etdilər. Sonrakı dövrlərdə isə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi (məcburi köçürülməsi) siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi deportasiyasına dövlət səviyyəsində nail oldular.

***Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan həqiqətlər açıldı, təhrif edilən hadisə lər əsl qiymətini aldı. Milli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 mart - Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Bununla da, Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşdi. Bu, həm də Azərbaycan xalqının əsrlər boyu üzləşdiyi məhrumiyyətlərə Heydər Əliyevin verdiyi əsl tarixi qiymət idi.***

***Fərmanda göstərilir ki, Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə, 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Bu gün isə Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi, onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü ilə yerinə yetirməkdədir.***

***31 mart - Azərbaycanlıların Soyqırımı Günü birmənalı olaraq, xalqımıza qarşı törədilən qanlı hadisələri tarixi yaddaşımıza əbədi həkk edən bir gün kimi xüsusi anılmalıdır.***

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
**Redaktor: X.Hacızadə**

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

ƏSGƏR

№ 06 (497)
30 mart 2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ İLK BİLETLƏRİ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ VƏ XANIMI MEHRİBAN ƏLİYEVAYA TƏQDİM OLUNUB

***"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasiminə 55 gün qaldığı vaxtda – martın 18-də Oyunların ilk biletləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və xanımı, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya təqdim olunub.***

"Bakı-2017" Əməliyyat Komitəsindən bildiriblər ki, IV İslam Həmrəyliyi Oyunlarının könüllülük proqramının bir hissəsi olmaq üçün artıq 8 mindən çox azərbaycanlı gənc qeydiyyatdan keçib. Könüllülər proqramının bir hissəsi olaraq gənclər Oyunların ictimaiyyətə geniş çatdırılmasında vacib rol oynayacaq, eyni zamanda, onlar üçün təşkil edilən liderlik, təqdimat və ünsiyyət yaratma bacarıqları üzrə təlimlərdən də bəhrələnəcəklər.

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları ilə əlaqədar satışa 500 min bilet çıxarılacaq. "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında azarkeşlər idmanın 20 növü üzrə 170 idman sessiyasını izləmək imkanı əldə edəcəklər. Bütün idman sessiyaları üçün biletlərin qiyməti 2-5 manat arasında dəyişir.

"Bakı-2017"nin təşkilatçıları biletlərin birinci Avropa Oyunlarında olduğu kimi, münasib və əlverişli qiymətlərlə satılmasını təmin edəcəklər ki, daha çox ailələr və gənc azarkeşlər bu yaz baş tutacaq mötəbər idman yarışından zövq ala bilsin. "Bakı-2017" 16 yaşadək bütün gəncləri güzəştli biletlərdən yararlanmağa səsləyir. Belə ki, onlar 13 idman sessiyasına pulsuz buraxılacaqlar. Həmçinin 2-16 yaşlı uşaqlar üçün Heydər Əliyev adına Arenaya, Milli Gimnastika Arenası və Tofiq Bəhramov adına Respublika Stadionuna təyinatlı biletlərin qiyməti bir manat olacaq.




Dünyanın müxtəlif ölkələrindən olan idman həvəskarları "Bakı-2017"nin möhtəşəm açılış və bağlanış mərasimlərini mayın 12-də və 22-də Bakı Olimpiya Stadionunda izləyə biləcəklər. Açılış mərasiminə biletlərin qiyməti 20-200, bağlanış mərasimi üçün isə 10-100 manat arasında dəyişir.

Əməliyyat Komitəsi idmanseverlərin diqqətinə çatdırır ki, həm də "Park Bulvar", "Gənclik" və "28 May" ticarət mərkəzləri də daxil olmaqla, paytaxtın müxtəlif yerlərində 12 bilet satışı məntəqəsindən ("ASAN xidmət"in 5 məntəqəsi də daxil olmaqla), eləcə də Oyunların keçiriləcəyi 16 yarış obyektində açılacaq bilet satışı kassalarından əldə etmək mümkündür.

IV İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin korporativ direktoru Elçin Səfərov bilet satışı ilə bağlı deyib: "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında mübarizə aparacaq 50-dən artıq ölkənin idmançılarını Azərbaycanda salamlamağı səbirsizliklə gözləyirik. Oyunların Azərbaycanda keçirilməsi gözəl ölkəmizi təbliğ etməklə yanaşı, həm də xalqımıza yüksək səviyyəli beynəlxalq idman yarışlarını seyr etmək şansı yaradır. Biletlərin qiymətlərini münasib saxlamaqla biz hər kəsi bu möhtəşəm beynəlxalq idman tədbirinə gəlib onun bir hissəsi olmağa çağırırıq".

"Bakı-2017"nin könüllülərindən bəhs edən korporativ direktor bildirib: "Biz ölkəmizin müxtəlif regionlarında yaşayan gənclərin 12 mindən çoxundan artıq ərizələr almışıq. Onların Oyunlar zamanı 8 min könüllüdən biri olmaq arzuları bizi çox sevindirir. İnanırıq ki, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Azərbaycanda artmaqda olan könüllülük mədəniyyətinin gözəl örnəyini bir daha nümayiş etdirəcək. Əminliklə deyə bilərəm ki, könüllülər Oyunlarda öhdələrinə düşən vəzifənin öhdəsindən layiqincə gələcəklər. Məhz könüllülük missiyası onları gələcək karyeralarını qurmaqda lazımi bilik, bacarıq və təcrübə ilə təmin edəcək".

İslam dünyasını birləşdirən maraqlı və çoxnövlü idman tədbiri olan "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları mayın 12-22-də keçiriləcək.

Müsəlman ölkələrini təmsil edən idmançılar on yarış günü ərzində idmanın 20 növü (23 kateqoriya) - atletika və para-atletika, su idmanı növləri (suyatullanma, üzgüçülük, su polosu), basketbol 3x3, futbol, idman gimnastikası, bədii gimnastika, uşu, stolüstü tennis, həndbol, cüdo və görmə qabiliyyəti olmayanlar üçün cüdo, yunan-Roma güləşi, sərbəst güləş, atıcılıq, tennis, voleybol, boks, zorxana, karate, taekvando, ağır atletika üzrə 16 müasir idman qurğusunda keçiriləcək yarışlarda mübarizə aparacaqlar.

Artıq idmançıları və nümayəndə heyətlərini qəbul edəcək Atletlər kəndi və yarışların təşkil olunacağı 16 idman obyekti tam hazır vəziyyətdədir. 55 ölkə "Bakı-2017"də iştirakını təsdiqləyib. Aprelin 5-dən "Xəzərdən başlayan su səyahəti" proqramına start veriləcək. Dağ Salnamə Muzeyindən başlayacaq marşrut Azərbaycanın 15 bölgəsini əhatə edəcək. İslam aləmində həyat mənbəyi, şəffaflıq və təmizlik rəmzi olan su Xəzərdən başlayan səyahət turunun əsas mövzusudur. Otuz yeddi gün ərzində 3 min kilometrdən artıq məsafənin qət olunacağı səyahət turu Xəzər dənizindən başlayacaq və Azərbaycan ərazisində mövcud olan 15 su hövzəsini əhatə edəcək. Səyahət zamanı bu hövzələrdən toplanan su mayın 12-də "Bakı-2017"nin açılış mərasiminin bir hissəsi olacaq. Bu münasibətlə keçiriləcək hər bir su mərasimi axşam su festivalı ilə müşayiət olunacaq

IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakıda keçirilməsi ilə bağlı qərar 2013-cü il iyulun 24-də İslam Həmrəyliyi İdman Federasiyasının Səudiyyə Ərəbistanının Ciddə şəhərində təşkil olunan VIII Baş Assambleyasında qəbul edilib. 2015-ci il sentyabrın 18-də Azərbaycan Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb. IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevadır.

IV İslam Həmrəyliyi Oyunlarının media akkreditasiyasından keçmək üçün aşağıdakı linkə daxil olmaq lazımdır: https://www.baku2017.com/az/p/media-akkreditasiyasi

**AZƏRTAC**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARI HƏRBİ QULLUQÇULARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 25-ci ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

İlyasov Etibar Süleyman oğlu – polkovnik
Həsənov Çərkəz Muxtar oğlu – gizir (ölümündən sonra).

**"İgidliyə görə" medalı ilə**

Ağasiyev Vüqar Vaqif oğlu – əsgər (ölümündən sonra)
İlyasov Şamil Kamil oğlu – əsgər (ölümündən sonra).

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abbasov Məhəmməd Əhməd oğlu – polkovnik-leytenant
Ağayev İlham Miri oğlu – polkovnik-leytenant
Əliyev Rauf Fazil oğlu – polkovnik-leytenant
Əliyev Sahil Asəf oğlu – polkovnik-leytenant
Məhərrəmov Elşən İnqilab oğlu – polkovnik-leytenant
Məmmədov Amid Qağa oğlu – polkovnik-leytenant
Məmmədov Ramin İsrafil oğlu – polkovnik-leytenant
Piriyev Maqsud Mehman oğlu – polkovnik-leytenant
Rüstəmov Ələddin Şəmi oğlu – polkovnik-leytenant
Rzayev Cavad Xanəhməd oğlu – polkovnik-leytenant
Şahmarov Şahin Əliqulu oğlu – tibb xidməti polkovnik-leytenantı
Yüzbaşıyev Kənan Məhəmməd oğlu – polkovnik-leytenant
Əsədov Əlinamə Şakir oğlu – mayor
Qarayev Hüseyn Ərrəhman oğlu – mayor
Nurəliyev Asif Tofiq oğlu – mayor
Quliyev Samir Calal oğlu – kapitan.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 mart 2017-ci il.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ YARANMASININ 25-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM İŞTİRAKÇILARININ

## MÜRACİƏTİ

**Möhtərəm Prezident!**
**Cənab Ali Baş Komandan!**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 25-ci ildönümünə həsr olunmuş təntənəli mərasimin iştirakçıları Sizi dərin hörmət və ehtiramla salamlayır, ən xoş, səmimi arzularını bildirir!

Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən və Milli Liderimiz Heydər Əliyevin 1993-cü ildə Ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən ordu quruculuğunda aparılan islahatlar Daxili Qoşunların da müasir beynəlxalq standartlar səviyyəsində formalaşması üçün möhkəm təməl yaratdı. Ulu Öndərin imzaladığı tarixi fərman və sərəncamlar hərbi xidmətin və döyüş hazırlığının yüksəlməsi, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmlənməsi, hərbçilərin sosial təminatının yaxşılaşması ilə nəticələndi, qoşunların idarə edilməsində keyfiyyətcə yeni mərhələnin əsasını qoydu.

Bu siyasəti uğurla davam etdirərək Daxili Qoşunların inkişafı üçün qəbul etdiyiniz qərarlar, göstərdiyiniz diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılanır.

Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakınız, eləcə də xidməti-döyüş fəaliyyətimizə verdiyiniz yüksək qiymət, haqqımızda söylədiyiniz dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

Respublikamızda daxili sabitliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsində xüsusilə fərqləndiklərinə görə bir qrup hərbi qulluqçunu yüksək mükafatlara layiq görməniz bizim üçün böyük mənəvi stimul olmaqla bərabər, Vətən, xalq, dövlət və dövlətçiliyimiz naminə xidmət əzmimizi daha da artırır.

Sözsüz ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan hüquq və azadlıqlarının nümunəvi təminini tələb edir.

Sizin rəhbərliyiniz altında xalqa, müstəqil ölkəmizə, dövlətçiliyimizə xidmət etməkdən şərəf duyan, ciddi nizam-intizama, sağlam mənəvi-psixoloji mühitə malik, döyüş hazırlığını, peşəkarlığını gündən-günə yüksəldən Daxili Qoşunların şəxsi heyəti qanunla müəyyən edilmiş bütün vəzifələri, qarşıya qoyulmuş döyüş tapşırıqlarını yerinə yetirməyə tam hazırdır.

**Möhtərəm Prezident!**
**Cənab Ali Baş Komandan!**

Sizi əmin edirik ki, Hərbi anda, xalqına və dövlətinə, Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti dövlətçiliyimizin və müstəqilliyimizin, hər bir vətəndaşın hüquq və azadlıqlarının keşiyində bundan sonra da ayıq-sayıq dayanacaq, Ali Baş Komandanın bütün əmr və göstərişlərini ən yüksək səviyyədə yerinə yetirəcək, Azərbaycan Respublikasına sədaqətlə xidmət edəcəkdir!

**Müraciət 11 mart 2017-ci il tarixdə Daxili Qoşunların Baş İdarəsində keçirilən təntənəli mərasimdə qəbul olunmuşdur.**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ YARANMASININ 25-ci İLDÖNÜMÜ TƏNTƏNƏ İLƏ QEYD OLUNUB

***Martın 12-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 25 il ötür. Bu əlamətdar hadisə münasibətilə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri Xiyaban - da Milli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.***



Sonra Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsi yad edilib, "Əbədi məşəl" önünə əklil qoyulub. Torpaqlarımızın azadlığı uğrunda Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının xatirəsinə ucaldılmış abidə ziyarət olunub.

Daha sonra Daxili Qoşunların Baş İdarəsində qoşunların yaranmasının 25 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib. Mərasimdə respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov və Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi, Prezident Administrasiyası rəhbərinin müavini general-leytenant Vahid Əliyev iştirak ediblər.

Əvvəlcə salona Daxili Qoşunların Döyüş Bayrağı gətirilib. Ulu Öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və bu günü barədə geniş məruzə ilə çıxış edib. O, deyib ki, Ulu Öndər Heydər Əliyevin 9 mart 1995-ci il tarixli Fər - manı ilə 1992-ci ildə Daxili Qoşunların şəxsi heyətinin Ermənistanın hərbi təcavüzünə qarşı döyüşə başladığı ilk gün - 12 mart Daxili Qoşunlar Günü kimi müəyyən olunub. Ötən illər ərzində Daxili Qoşunlar ciddi sınaq və çətinliklərdən dəyanətlə çıxıb. Torpaqlarımızın azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında Qoşunların 510 nəfər hərbi qulluqçusu həlak olub, 1166 nəfəri yaralanıb, 268 nəfəri isə itkin düşüb. Hərbi qulluqçulardan 9 nəferi "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Təsadüfi deyil ki, Vətən naminə hər bir xidməti dəyərləndirən Milli Lider Heydər Əliyev Daxili Qoşunların fədakarlığını daim yüksək qiymətləndirib.



Qeyd olunub ki, atəşkəs dövründə qoşunlarda idarəetmənin təkmilləşdirilməsi, döyüş və peşə hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, normativ-hüquqi və maddi-texniki bazanın yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib. Şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, hərbi hissələrdə məişət və yaşayış şəraitinin yaxşılaşdırılması əsas vəzifələrdən biri olub.

Xalqımıza, dövlətimizə, dövlətçiliyimizə sədaqət və fədakarlıqla xidmət edən Daxili Qoşunların hərbi qulluqçuları polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman uğurla yerinə yetiriblər. Respublikada ictimai asayişi pozmaq cəhdlərinin qarşısının alınması və silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsi üzrə keçirilən xüsusi əməliyyatlarda şəxsi heyət hər zaman yüksək döyüş hazırlığı, peşəkarlıq göstərib.

Ölkəmizdə keçirilən mötəbər beynəlxalq idman yarışları - Birinci Avropa Oyunları və "Formula-1 Avropa Qran Pri"si zamanı ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində şəxsi heyət fəal iştirak edib, müəyyən olunmuş tapşırıqların öhdəsindən layiqincə gəlib. Bu il keçiriləcək 4-cü İslam Həmrəyliyi Oyunlarında da Daxili Qoşunların qarşısında mühüm tapşırıqlar qoyulub və şübhə yoxdur ki, şəxsi heyət bu dəfə də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Yubiley mərasimində çıxış edən Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin peşə bayramı münasibətilə təbriklərini və xoş arzularını şəxsi heyətə çatdırıb. Nazir "Dövlət quruculuğu prosesində Daxili Qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir",-deyən Milli Lider Heydər Əliyevin ordu quruculuğu çərçivəsində Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini, yüksək döyüş hazırlığı olan peşəkar və mobil bir quruma çevrildiyini məmnunluqla xatırladıb. Qeyd edilib ki, son illər Daxili Qoşunlarda hərbi intizamın möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər mənəvi-psixoloji durumu daha da yaxşılaşdırıb, tabelik münasibətlərini əhəmiyyətli dərəcədə möhkəmləndirib, hüquqazidd əməllərin və kobud intizam pozuntularının sayı minimuma enib, qrup halında nizamnamədənkənar münasibət faktları isə ümumiyyətlə qeydə alınmayıb.



Cənab Ramil Usubov vurğulayıb ki, bu gün Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali diqqət və qayğısının, tələb və göstərişlərinin nəticəsi olaraq, Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir. Nazir deyib ki, Ulu Öndərin ordu quruculuğu sahəsində də siyasətini uğurla davam etdirən möhtərəm dövlət başçımızın Daxili Qoşunların inkişafı üçün qəbul etdiyi qərarlar, göstərdiyi diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılanır. Ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də Qoşunların xidməti fəaliyyətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla, şəxsi heyəti daha böyük uğurlara ruhlandırır. Məhz Ali Baş Komandanın əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr ən yüksək beynəlxalq standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib. 2011-ci ildə Daxili Qoşunların ixtisaslı zabit kadrları ilə təmin olunmasının daha da yaxşılaşdırılması məqsədilə Orta İxtisas Hərbi Məktəbinin bazasında Ali Hərbi Məktəb yaradılıb.

O da nəzərə çatdırılıb ki, Daxili Qoşunlar 1997-ci ildən Türkiyənin Jandarm Qüvvələri Baş Komandanlığı ilə sıx əməkdaşlıq edir. Bu illər ərzində Jandarm Qüvvələri Baş Komandanlığının yardımı ilə qoşunlarda xidməti-döyüş fəaliyyəti və kadr hazırlığı işi müasir tələblərə uyğun qurulub. Nazir R.Usubov əldə edilmiş uğurlarda danılmaz roluna, təmənnasız yardımlarına görə dost və qardaş dövlətin Jandarm Qüvvələri Baş Komandanlığının rəhbərliyinə, hərbi mütəxəssislərinə təşəkkürünü bildirib.



Daxili İşlər Naziri Qoşunların özünün ən müqəddəs missiyasını Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında gördüyünü və bu gün torpaqlarımızın işğaldan azad edilməsi uğrunda hərbi əməliyyatlara tam hazır olduğunu, bu missiyanın uğurla həyata keçirilməsi üçün şəxsi heyətin Silahlı Qüvvələrlə birgə hərbi təlimlərdə fəal iştirak etdiyini diqqətə çatdırıb. Xüsusilə qeyd edilib ki, yaranmasından cəmi 25 il keçməsinə baxmayaraq, bu gün Daxili Qoşunlar hazırlıq səviyyəsinə görə aparıcı Avropa dövlətlərinin müvafiq qurumlarından heç də geri qalmır və dünyada tanınmış hərbi ekspertlər də bunu etiraf edirlər.

Çıxışının sonunda general-polkovnik Ramil Usubov daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirən, peşə bayramı ərəfəsində bir qrup hərbi qulluqçunu dövlət mükafatları ilə təltif edən Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirib. O, ölkə başçısını əmin edib ki, "Vətənin əsgəri" adını daim uca tutan hərbi qulluqçular bundan sonra da müstəqilliyin və daxili təhlükəsizliyin keşiyində ayıq-sayıq dayanacaq, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcək, döyüş hazırlıqlarını daim artıracaqlar.

Daxili Qoşunların yaranmasının 25-ci ildönümü ilə əlaqədar bir qrup hərbi qulluqçunun təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı, həmçinin, Daxili İşlər Nazirinin və nazir müavini-Daxili Qoşunların Komandanının imzaladıqları əmrlər elan olunduqdan sonra xidmətdə fərqlənənlərə dövlət təltifləri və yeni rütbələrin paqonları təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüv - vələrin Ali Baş Komandanı zatialiləri cənab İlham Əliyevə müraciət qəbul olunub.

# DAXİLİ QOŞUNLARIN YARANMASININ 25-ci İLDÖNÜMÜ MƏRASİMLƏRİ HƏRBİ HİSSƏLƏRİMİZDƏ DƏ KEÇİRİLİB

***Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov bayram süfrəsi arxasında şəxsi heyətlə birlikdə nahar edib***

Martın 12-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunların yaranmasının 25-ci ildönümü münasibətilə qoşunların hərbi hissələrində təntənəli yubiley mərasimləri keçirilib.



Həmin gün Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində olub.

Daxili İşlər Nazirinin müavini - Daxili Qo - şunların Komandanı general-leytenant Şahin Məmmədov cənab naziri qarşılayaraq, şəxsi heyətin mərasimə hazırlığı barədə raport verib. Nazir şəxsi heyəti salam - layıb, əlamətdar gün münasibətilə onları təbrik edib. Respublikanın Daxili İşlər Naziri qeyd edib ki, ötən illərdə Daxili Qoşunlar qarşısına qoyulmuş mühüm vəzifələrin yerinə yetirilməsinə hər zaman böyük məsuliyyətlə yanaşıb və göstərilən yüksək etimadı doğrultmağa çalışıb. Böyük bir şərəfli yol keçən, yarandığı gündən daim dövlətin və dövlətçiliyin keşiyində yenilməz əzmkarlıqla dayanan Daxili Qoşunların inkişaf və yüksəliş yolu Milli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Daxili Qoşunlar Milli Liderin xüsusi diqqət və qayğısı nəticəsində formalaşmış, inkişaf etmiş, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilmişdir.

Sonra general-polkovnik Ramil Usubov zabit və əsgərlərin xidmət və məişət şəraiti, hərbi hissənin ərazisində aparılmış abadlıq-qu - ruculuq işlərilə yaxından tanış olub, müvafiq tapşırıq və tövsiyələrini verib. Daha sonra Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov və nazir müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov bayram süfrəsi arxasında şəxsi heyətlə birlikdə nahar ediblər.

**Mətbuat xidməti**

# HƏRBİ QULLUQÇULARIMIZA ALİ DÖVLƏT MÜKAFATLARI TƏQDİM OLUNUB

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 25-ci ildönümü münasibətilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və Daxili İşlər Nazirinin əmri ilə dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, həmçinin xidmətdə xüsusilə fərqləndiklərinə, yüksək peşə hazırlığı, nümunəvi hərbi intizam nümayiş etdirdiklərinə görə bir qrup hərbi qulluqçu mükafat - landırılmışdır.***





Bu münasibətlə martın 18-də Daxili Qoşunların Baş İdarəsində mükafatların təqdim edilməsi mərasimi keçirilib. Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov mükafatları şəhid ailələrinin üzvlərinə və hərbi qulluqçulara təqdim edib.

Ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olunmuş şəhid hərbi qulluqçumuz əsgər İlyasov Şamil Kamil oğlunun qardaşı Süleyman İlyasov şəhid ailələrinə yüksək dövlət qayğısı göstərildiyinə görə Respublika Prezidentinə və Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirərək, Daxili Qoşunların şəxsi heyətinə xidmətdə uğurlar arzuladı.

Tədbirin sonunda çıxış edən general-leytenant Ş.Məmmədov təltif olunan hərbi qulluqçuları, şəhid ailələrinin üzvlərini təbrik edərək, göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlığını bildirib. Daxili Qoşunlar Komandanı əminliklə bildirib ki, şəxsi heyət bundan sonra da göstərilən etimadı doğruldacaq, dövlət və dövlətçiliyimizin qorunması naminə verilən bütün əmr və göstərişləri tam keyfiyyətlə yerinə yetirəcək.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ümumilikdə, hərbi qulluqçulardan 2 nəfər "Vətən uğrunda" (1 nəfər ölümündən sonra), 2 nəfər "İgidliyə görə" (ölümündən sonra), 16 nəfər "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

**Mətbuat xidməti**



# NİZAM-İNTİZAM KEYFİYYƏTLİ XİDMƏTİN ƏSASIDIR

***99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsi nizam-intizamı, döyüş hazırlığı ilə fərqlənir. Ötən ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə müvəffəqiyyət qazanan bölmənin şəxsi heyəti verilən tapşırıqların icrasına tam məsuliyyətlə yanaşır. Sözsüz ki, əldə olunan nailiyyətlərdə bölmə komandiri kapitan Surac Orucovun bilik və bacarığı, peşəkarlığı, işgüzarlığı mühüm rol oynayır.***



Kapitan S.Orucov bölmənin xidməti-döyüş fəaliyyətinin hərbi hissənin "2017-ci ilin I yarımili üçün əsas tədbirlərin, döyüş təliminin planlaşdırılmasına və təşkilinə dair təqvim planına" əsasən qurulduğunu bildirdi. Qeyd etdi ki, hərbi hissə komandirinin təsdiq etdiyi məşğələ cədvəlinə əsasən şəxsi heyətlə məşğələlər keçirilir. Şəxsi heyətin peşə vərdişlərinin təkmilləşdirilməsi üçün atəş və fiziki hazırlıq məşğələlərinə üstünlük verilir, məşğələ - lərin keyfiyyətlə keçirilməsi diqqətdə saxlanılır.





Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığına, nizam-intizamına xüsusi diqqət yetirildiyini söyləyən kapitan S.Orucov bu fəaliyyətdə əsas şərtlərdən biri kimi hər bir hərbi qulluqçuya fərdi yanaş - manın və fərdi tərbiyə işinin keyfiyyətlə aparılmasının vacib olduğunu diqqətə çatdırdı. Şəxsi heyət arasında qarşılıqlı münasibətlərin qorunub saxlanılması, onların xidmətdə və xidmətdən sonrakı fəaliyyətinin səmərəli təşkili də bölmə komandirinin nəzarətindədir.

Daxili Qoşunların Komandanı tərəfin - dən verilən tapşırıqların icrasına hər zaman hazır olduqlarını bildirən bölmə ko - mandiri 2016-cı ildə ölkəmizdə keçirilən "Formula 1 Avropa Qran Pri"si yarışları zamanı xidmətə cəlb olunan şəxsi heyətin vəzifələrinin öhdəsindən layiqincə gəldiyini vurğuladı: "Bizim bölmə hərbi hissədə ötən ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə birinci yerə layiq görülüb. Qarşımıza qoyduğumuz məqsədə doğru addım-addım irəlilədik və 2016-cı ilin inspeksiya yoxlamasını "əla" və "yaxşı" qiymətlərlə başa vurduq".

Xidmətdə fərqlənən hərbi qulluqçularımızın əldə etdikləri nailiyyətlər hər zaman bizi sevindirir, digər bölmələrə örnək kimi göstərilir. Biz də öz növbəmizdə onları təbrik edir və qazandıqları uğuru qoruyub saxlamağı arzu edirik.

**leytenant N.Ağayeva**

# 64412 SAYLI HƏRBİ HİSSƏ TƏYİNATI BAXIMINDAN XÜSUSİ VƏ ÇOX MƏSULİYYƏTLİ VƏZİFƏLƏRİ İCRA EDİR

**"Bu gün Daxili Qoşunlar komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də qoşunların maddi-texniki təminatıdır. Qoşunların maddi-texniki təchizat bazasının daha da artırılması daima ciddi nəzarətdə saxlanılır və bu istiqamətdə görülən genişmiqyaslı işlər davam etdirilir".**

Bu fikirləri Daxili Qoşunların 64412 saylı hərbi hissəsinin-mərkəzləşdirilmiş anbarların komandiri polkovnik-leytenant Elşən Məhərrəmov söhbət əsnasında səsləndirdi. O, qeyd etdi ki, qoşunların mərkəzi anbarları təyinatı baxımından xüsusi və çox məsuliyyətli vəzifələri icra edir. Yəni Daxili Qoşunların hərbi hissələrinin mərkəzləşdirilmiş maddi-texniki təminatını 64412 saylı hərbi hissə həyata keçirir. Daha dəqiq ifadə etsək, mərkəzləşdirilmiş anbarlar əsas təchizat növləri üzrə ehtiyatı hərbi hissədə cəmləşdirir. O, deyir ki, təşkilatlardan hərbi hissəyə daxil olan bütün növ əmlaklar, eləcə də ət, balıq, yumurta, kolbasa və s. məhsullar ictimai nəzarət komissiyasının iştirakı ilə yoxlanılıb anbarlara qəbul edilir. Sonra Daxili Qoşunlar komandanlığının müvafiq əmr və göstərişlərinə əsasən hərbi hissələrin təminatına buraxılır.

Polkovnik-leytenant E.Məhərrəmov hərbi hissədə 15 anbarın (ərzaq, ərzaq əmlakı, əşya, avtomobil və zirehli texnika ehtiyat hissələri, YSM, silah, sursat, mənzil-istismar əmlakları, Rabitə və AİS əmlakları, tibb, mühəndis, kimya, xəritə, mədəni-maarif əmlakları, aviasiya əmlakları və ehtiyat hissələri anbarları) və 2 emalatxananın (silah təmiri, rabitə emalatxanaları) mövcud olduğunu nəzərə çatdırdı. Hissə komandiri hərbi hissənin gündəlik xidməti haqqında məlumat verərkən bildirdi ki, şəxsi heyət fəaliyyətini rəhbər sənədlərin tələbləri əsasında qurur. Səhər şəxsi heyətlə yerbəyer mərasimi keçirilir, onlara vəzifələri üzrə aidiyyəti tapşırıqlar verilir. Ardınca hər anbar rəisi cavabdeh olduğu anbarın mühafizə altından çıxarılmasında iştirak edir. Sonra anbar rəisi hissə komandanlığı tərəfindən gündəlik olaraq qarşısına qoyulan tapşırıqların icrasına başlayır. Onun sözlərinə görə, hər bir hərbi qulluqçu üzərilərinə düşən tapşırıqların məsuliyyətini tam dərk edir və funksional vəzifələrini uğurla həyata keçirir. Nümunəvi xidməti, nizam-intizamı ilə fərqlənən hərbi qulluqçulardan ərzaq anbarının rəisi baş çavuş Musa Hacıyev və əşya anbarının rəisi gizir Əsgər Ələkbərovun adlarını çəkə bilərik.

Elə hərbi hissədə fotoçəkiliş apardığım zaman baş çavuş Musa Hacıyev və gizir Əsgər Ələkbərov iş başında idi. Onlar hərbi hissələri ərzaq, əşya əmlakları ilə təmin etməyə, əmlakların düzgün və keyfiyyətli qorunub saxlanılmasına, habelə tadarükçü təşkilatlardan ərzaq əmlaklarının alınması zamanı onların kəmiyyətinə, eyni zamanda uyğunluğuna cavabdehdir. Anbarlarda saxlanılan ərzaq məhsullarının, əşya əmlaklarının nomenklaturasını bilmək, onların komplektliyinə, mövcudluğuna, o cümlədən keyfiyyətinə nəzarət etmək də anbar rəislərinin funksional vəzifələrinə daxildir. Günün sonunda onlar anbarlarda olan əmlakların hesabatını dəqiq aparmalı, mədaxil-məxaric sənədlərini məsul icraçıya təqdim etməlidirlər. Bundan başqa, ayda bir dəfədən az olmayaraq, məsul icraçı ilə tutuşdurma aparmalıdırlar.





Bu sahədə xidmət edən məsul icraçılar da qarşılarına qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlir. Ərzaq anbarında məsul icraçı kiçik gizir Nurlanxanım Əmrahlı və əşya anbarında məsul icraçı gizir Şəbnəm Mövsümova qeydiyyat kitablarını, qeydiyyat blanklarını, sənədlərin qorunub saxlanılmasını, habelə anbardan ərzaq məhsulları və əşya əmlaklarının buraxılması üzrə sənədləri düzgün tərtib edir, uçot kitablarını vaxtlı-vaxtında hazırlayırlar. Sadalananlarla yanaşı, anbar rəisləri ilə razılaşdırılmış şəkildə mədaxil-məxaric sənədlərini yazır, qeydiyyat kitablarında olan maddi vəsaitlərin qalıqlarını anbarın qeydiyyat məlumatları ilə müntəzəm olaraq tutuşdururlar. Onlar deyir ki, hər bir hərbi qulluqçu vəzifələrinə məsuliyyətlə yanaşsa, xidmətini rəhbər sənədlərin tələbləri əsasında qursa və öz sahəsi üzrə dərin biliklərə yiyələnsə, həmişə uğur əldə edər. Bunun üçün hərbi qulluqçu daima öz üzərində çalışmalı, peşə vərdişlərinin təkmilləşdirilməsi istiqamətində səy göstərməlidir.





**baş leytenant**
**T.Əlizadə**

*Döyüş yolumuz*

# BİR ÜNVANIMIZ VARDI - SƏNGƏRLƏR...

1993-cü ilin soyuq yanvar günlərində Ağdam rayonunun Xındırıstan, sonra isə döyüş mövqelərinə yaxın olan Çuxurməhlə kəndlərində yerləşdiyimiz zaman Bakıda aldığım və ön cəbhəyə götürdüyüm bloknotda ilk qeydlərimi etmişəm. Bu gün vərəqləri saralmış həmin bloknotu nəzərdən keçirdikcə, o qanlı-qadalı günlərin xatirələri düşüncələrimə hakim kəsilir. Bloknotda ön cəbhədə şahidi olduğum bəzi məqamlarla yanaşı, döyüşçü yoldaşlarımın ev ünvanlarını da yazmışam. Birinci vərəqdə belə bir qeyd var: "Cəbhədə ünvanımız bir idi. Ayrılanda...". Bəli, müharibədə ünvanımız səngərlər idi. Ağır sınaqlarla üzləşdiyimiz o səngərlərdə döyüşçü qardaşlığı yaranırdı. Yaşadığımız sarsıntılar içində gələcəyə ümidlə baxırdıq, bir-birimizin ünvanlarını soruşub qeyd edirdik. Deyirdik ki, inşallah, müharibədən qayıdarıq, soraqlaşıb əlaqə saxlayarıq, gediş-gəlişimiz olar. Ancaq bu arzusuna aramızda hamı çata bilmədi... Müharibədə şəhid olmuş döyüşçü yoldaşlarımı həmişə xatırlayıram. Bəzilərinin məzarının yerini bildiyimdən, gedib ziyarət edir, bundan bir qədər təskinlik tapıram. Torpaqlarımız düşmən tapdağından azad olunanadək onların ruhu rahatlıq tapmayacaq. Biz - o döyüşlərdə iş - tirak etmiş, ehtiyatda olan hərbi qulluqçula - rın və bütövlükdə bugünkü gənclərin müqəddəs amalı işğal olunmuş torpaqları geri qaytarmaq, şəhidlərin ruhunu sevindirməkdir.

2016-cı ilin aprel ayında ordumuz bu yolda mühüm addımını atdı. Bu müqəddəs missiyanı xalq olaraq başa çatdıracağıq. Biz buna layiqik və qadirik!

Ön cəbhə bloknotumda adicə qələmlə çəkilmiş, müharibə mövzusunu, habelə dinc həyat üçün nostaljini əks etdirən rəsmlər var. Bu rəsmlərin bəzisini döyüşçü yoldaşım olmuş Süleyman Quliyev çəkib. ***Süleyman Quliyev 1993-cü ildə Ağdamın Qalayçılar kəndində döyüş zamanı itkin düşdü.*** Onun taleyindən bir xəbər almaq mümkün olmadı. Ağdaş rayonunun Aşağı Ləki kəndində anadan olmuşdu. Sağ qalsaydı, bəlkə də çox istedadlı rəssam olacaqdı. Bloknotumda öz əli ilə yazdığı ürək sözlərində belə bir cümlə var: "Allah heç kəsin arzusunu, istəyini ürəyində qoymasın". Kim bilir, onun ürəyində nə kimi arzular vardı... Çox vətənpərvər və millətsevər gənc idi.

Bloknotumdakı rəsmlərin bir qisminin də müəllifi döyüşçü yoldaşım olmuş Zöhrab Həsənovdur. **Zöhrab Həsənov Masallı rayonunun Köhnə Alvadı kəndində, dindar ailədə dünyaya göz açmışdı.** Müharibədə o qədər acı günləri bir yerdə yaşamışdıq, çörəyimizi yarı bölmüşdük, səngərlərdə çiyin-çiyinə dayanmışdıq. 1993-cü ilin dekabrında Füzuli rayonu ərazisində gedən döyüşlərdən birində şəhid oldu. O, ölümünü hiss etmişdi, bunu mənə də demişdi. Məni kövrəldən sözləri yaddaşımda iz qoyub: "Sən evə qayıdacaqsan, bu günləri heç vaxt unutma...".

**Döyüşçü yoldaşlarım olmuş Elman Məmmədov və Arif Əsgərov da 1993-cü ildə Ağdamın Qalayçılar kəndinə düşmənin hücumu zamanı itkin düşmüşlər.** Onların da taleyi barədə heç bir xəbər olmadı. Elman Gədəbəyin Moruxlu kəndindən idi. Arif isə İsmayıllı rayonunun İvanovka kəndində anadan olmuşdu. Onlar müharibənin bütün əziyyətini görmüşdülər, döyüşlərdə bərkimişdilər. Elman deyirdi ki, düşmən bizim rayon istiqamətində bir metr də irəliləyə bilməyib. Maraqlı söhbətlər edirdi. Arif isə yumor hissi olan gənc idi. Onun bu cəhəti əhvalımıza müsbət ovqat qatırdı. Müharibə belə oğulları əlimizdən alıb...



**Ünvanını o vaxt qeyd etdiyim döyüşçülərdən Azər Qəhrəmanov da şəhid olub.** 1993-cü ilin yanvarında ermənilər mövqelərimizi Fərrux yüksəkliyindən minaatanlarla atəşə tutduğu zaman Azər ağır yaralanaraq Vətən yolunda canını fəda etdi. Onunla döyüş bölgəsinə eyni hərbi hissədən göndərilən heyətin tərkibində birlikdə gəlmişdik. Qorxmaz hərbi qulluqçu idi. Neçə il sonra ailəsini axtarıb tapdım və döyüş yolunun son günləri haqda valideynlərinə danışdım.

**Ünvanların içində daha bir qeyd mənə fədakar döyüşçü olmuş Şirin Hüseynovu xatırladır.** Şirin əslən Ağcabədi rayonundan idi. Müharibə sınaqları qarşısında heç vaxt büdrəməyən bu hərbi qulluqçu hamının hörmətini qazanmışdı. Şirin şəxsi heyətin qeydiyyatının aparılmasında komandirlərə köməklik göstərirdi. O,1993-cü ilin dekabr ayında Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığındakı yüksəklik uğrunda döyüşdə şəhid olub.

Vətənin dar günündə mərd oğullar sinəsini sipər edərək düşmənin qarşısını kəsiblər. Belə oğullar barədə mətbuat yazısı oxumaq, sənədli filmə baxmaq müəyyən təsəvvür yaratsa, da elə məqamlar var ki, heç bir mənbədə öz əksini tapmır. Mən belə qeyrətli oğulların göstərdiyi şücaəti, dözüm və iradəsini, Vətənə bağlılığını bütün gerçəkliyi ilə görmüşəm. Bu, bizim ruhlandırıcı tariximizdir, gələcək döyüş sınaqları üçün dəyərli örnəkdir.

Ön cəbhə bloknotumda müharibənin gerçək üzünü göstərən qeydlərim az deyil. **Qeydlərdən biri döyüşçü yoldaşım Babək Nəsirov haqdadır.** B.Nəsirov müharibə veteranıdır. Onunla döyüş yoluna bir başlamışdıq. Çavuş rütbəsi daşıyırdı. Müharibədə zabit və gizirlər kimi, kiçik komandirlər olan çavuşların da fəaliyyəti xüsusi rol oynayır. Babək qətiyyətli, hərbi andına sadiq hərbi qulluqçu olub.

1993-cü ilin fevral ayında Ağdərənin Kəlbəcərə gedən yolun üstündə yerləşən Kaçaqot kəndinə birinci hücum zamanı düşmən bizim həmləmizdən geri çəkildi. Ancaq qüvvə toplayıb əks hücuma keçdikdə bizim döyüşçüləri mühasirəyə almağa cəhd etdi. Bu zaman Babəkin tabeliyindəki əsgərlərin ayıq düşməsi, tutduqları mühüm mövqedə inadla müdafiə olunması qeyri-bərabər döyüşdə mühasirə tələsindən qurtulmağımıza imkan verdi. Məhz belə döyüş anlarında komandir də, əsgər də öz cəsarətini göstərərək güvən qazanırlar. Bu güvəni heç vaxt itirmək olmaz, müharibədə bunu heç kəsə bağışlamırlar. **Döyüş bölgələrində sanitar-təlimatçı və feldşer kimi fəaliyyət göstərmiş döyüşçü yoldaşım Qaməddin Atakişiyev barədə də ön cəbhə bloknotumda qeydlər var.** Onunla cəbhədə tanış olmuşdum. Mənimlə yaralılara necə ilk tibbi yardım göstərmək təcrübəsini bölüşmüşdü. Döyüşlər vaxtı xeyli meyit və yaralı görüb sarsılmışdı, ancaq iradəsini toparlaya bilmişdi. Deyirdi ki, tibb işçilərinə soyuqqəlbli insanlar kimi yanaşmışam, ancaq müharibədə anladım ki, onlar bir qədər soyuqqanlı olmağa məcburdurlar.

***Bir dəfə Ağdam rayonunun Papravənd kəndi ətrafındakı mövqedə olduğum zaman bloknotumda qeydlər apararkən postları yoxlamağa gəlmiş tabor komandirinin şəxsi heyət üzrə müavini Oqtay Eynullayev mənə yaxınlaşdı.*** Soruşdu ki, bloknotda nə yazırsan? Cavab verdim ki, müharibə qeydləridir. Dedi ki, düz eləyirsən, həyatda yazılan qalır, neçə illər keçəcək, bu qeydlər lazım olacaq. Məsləhət gördü ki, müntəzəm olaraq "Əsgər" qəzetinə yazılarımı göndərim. Bildirdim ki, göndərirəm (Döyüş bölgələrindən göndərdiyim yazılar o dövrdə qəzetin saylarında dərc olunub - Y.A). Söylədi ki, nə çətinlik olsa, ona müraciət edim. O, həmişə əsgərlərə deyirdi ki, özünüzü qoruyun, bir-birinizə dayaq olun, heç vaxt ruhdan düşməyin. Bloknotumu vərəqlədikcə, bu sözlərini və 1994-cü ilin yanvar ayında Füzuli rayonu ərazisində döyüşlərdən birində onun ölümcül yaralandığı anı kədərlə xatırladım.

Müharibə mövzusu o qədər dərin və ağrılıdır ki, istər yaradıcılıq baxımından, istərsə də tədqiqatçı yanaşma nöqteyi-nəzərindən bir sıra məqamların, təfərrüatların işıqlandırılması zaman tələb edir. Ancaq bununla yanaşı, mövzunu əks etdirən hər bir yazı o illərin ab-havasını, gerçək tərəflərini bu və ya digər dərəcədə ortaya çıxarır, "heç nə unudulmur, heç kəs yaddan çıxmır" deyiminin aktuallığına diqqət çəkir.

**Yalçın Abbasov**